AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

12 (64 ) 26 avqust 2016-cı il

İctimai-siyasi qəzet

# İlham Əliyev Belçikanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib



Prezident İlham Əliyev Belçika Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bert Skufsun etimadnaməsini qəbul edib.

Səfir Bert Skufs fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Bert Skufs etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Azərbaycan-Belçika ikitərəfli əlaqələrinin uğurla inkişaf etdiyini qeyd edən dövlətimizin başçısı bu əlaqələrin razılıq doğurduğunu bildirdi. Ölkələrimiz arasında ticarət, sərmayələr, təhsil və digər sahələrdə mövcud olan əlaqələrin daha da möhkəmləndirilməsi üçün yaxşı potensialın olduğunu deyən Prezident İlham Əliyev iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğuladı. Belçika şirkətlərinin Azərbaycandakı fəaliyyətinə toxunan dövlətimizin başçısı xüsusən tikinti sahəsində bu şirkətlərin uğurlu təcrübəsini qeyd etdi. Prezident İlham Əliyev səfirə diplomatik fəaliyyətində uğurlar arzuladı.

Azərbaycanda səfir təyin olunmasından məmnunluğunu ifadə edən Bert Skufs hələ 2012-ci ildə Azərbaycanda olduğunu, ölkəmizin və Bakının gözəlliyinin, həmçinin xalqımızın səmimiliyinin onu valeh etdiyini dedi. Belçika şirkətlərinin Azərbaycanda tikinti sahəsi ilə yanaşı, logistika, əczaçılıq, tibb, texnologiyalar və digər sahələrdə fəaliyyət göstərdiklərini qeyd edən səfir Bert Skufs ölkəsinin iş adamlarının Azərbaycan şirkətləri ilə işləməyə hər zaman açıq olduqlarını bildirdi. Fəaliyyətinin əsas məqsədinin ölkələrimiz arasında yaxşı münasibətləri davam etdirmək olacağını vurğulayan səfir hər iki ölkənin maraqları daxilində iqtisadi əməkdaşlıq imkanlarını araşdırmaq istiqamətində də səylərini əsirgəməyəcəyini qeyd etdi.

## İlham Əliyev Almaniyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

Prezident İlham Əliyev Almaniya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixael Kindsqrabın etimadnaməsini qəbul edib.

Səfir Mixael Kindsqrab fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Mixael Kindsqrab etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlət başçısı Azərbaycanla Almaniya arasında ikitərəfli əlaqələrin çox uğurla inkişaf etdiyini vurğuladı. Bu ilin iyununda Almaniyaya uğurlu səfərini və eləcə də Almaniyanın xarici işlər naziri Frank-Valter Ştaynmayerlə Varşavadakı görüşünü məmnunluqla xatırlayan Prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlığın çox fəal mərhələdə olduğunu dedi. İqtisadi sahədə böyük qarşılıqlı marağın olduğunu deyən dövlətimizin başçısı bunun Berlində keçirilən biznes forum zamanı şahidi olduğunu qeyd etdi. Almaniyanın çoxlu şirkətlərinin ölkəmizdəki fəaliyyətinə toxunan Prezident İlham Əliyev ölkəmizin alman şirkətlərinin Azərbaycanda təkcə kontraktor kimi deyil, eləcə də investor kimi çalışmalarında maraqlı olduğunu bildirdi. Azərbaycanla Almaniya arasında qarşılıqlı inam və etimada əsaslanan siyasi dialoqun davam etdirilməsinin önəmini qeyd edən dövlətimizin başçısı enerji, nəqliyyat, təhlükəsizlik və digər sahələrdə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu dedi. Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı.

Qəbula görə minnətdarlığını bildirən Almaniya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixael Kindsqrab ikitərəfli əlaqələrimizin inkişaf etdirilməsi ilə bağlı Almaniyanın Kansleri Angela Merkeldən və xarici işlər naziri Frank-Valter Ştaynmayerdən aydın göstərişlər aldığını bildirdi. O, Angela Merkelin və Frank-Valter Ştaynmayerin sabit və inkişaf edən tərəfdaş ölkə olan Azərbaycanla əlaqələrin genişləndirilməsinə böyük maraq göstərdiklərini qeyd etdi. Səfir son illər Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun daha da artdığını xüsusi vurğuladı. Almaniyalı diplomat siyasi, iqtisadi, enerji təhlükəsizliyi, mədəni və digər sahələrdə mövcud olan əməkdaşlığımızın daha da genişləndirilməsi işində səylərini əsirgəməyəcəyini dedi.



Görüşdə Azərbaycanda həyata keçirilən islahatlar ətrafında fikir mübadiləsi aparıldı, ölkələrimiz arasında enerji, təhlükəsizlik, səhiyyə, turizm, mədəniyyət və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə edildi.

## İlham Əliyev Rusiyanın müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Prezident İlham Əliyev Rusiya Federasiyasının müdafiə naziri Sergey Şoyqunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana son səfərinin uğurla keçdiyini vurğulayaraq səfər zamanı Azərbaycan və Rusiya prezidentlərinin görüşündə əlaqələrimizin geniş spektrini əhatə edən sahələrlə bağlı müzakirələr aparıldığını, o cümlədən hərbi və hərbi-texniki əməkdaşlığın uğurla reallaşdığını bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, iki ölkənin dövlət başçılarının görüşü zamanı Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin yüksək səviyyədə olmasının əlaqələrimizin müxtəlif sahələrini əhatə edən məsələlərin, həmçinin regional təhlükəsizlik məsələlərinin həllinə imkan verəcəyi qeyd olunmuşdu.

Dövlətimizin başçısı dedi ki, bu yaxınlarda Rusiyada keçirilən Beynəlxalq Ordu Oyunlarında Azərbaycan komandasının ilk dəfə çıxış etməsini nəzərə alsaq, nəticəni uğurlu hesab etmək olar. Azərbaycan Prezidenti Rusiya komandasının həmin oyunlarda qələbəsi münasibətilə təbriklərini çatdırdı.

Prezident İlham Əliyev Rusiya müdafiə nazirinin Azərbaycana səfərinin hərbi və hərbi-texniki sahədə əməkdaşlığımızın perspektivləri ilə bağlı səmərəli müzakirələrin aparılması işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

Rusiyanın müdafiə naziri Sergey Şoyqu Prezident Vladimir Putinin Azərbaycana səfərinin və səfər zamanı Prezident İlham Əliyev ilə keçirdiyi görüşlərin ikitərəfli münasibətlərin, o cümlədən hərbi və hərbi-texniki sahədə əməkdaşlığın genişlənməsi baxımından önəmini vurğuladı.

Sergey Şoyqu Azərbaycan Silahlı Qüvvələri nümayəndələrinin Rusiyada keçirilən Beynəlxalq Hərbi Oyunlarda fəal iştirakını məmnunluqla qeyd etdi.

AZƏRBAYCAN VETERANI

# "Vətəndaş cəmiyyəti" təşəbbüs qrupu yaradıldı



2016-cı il sentyabr ayının 26-a təyin olunmuş Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı refendumda təşviqat qrupu qismində iştirak etmək üçün Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) və 24 qeyri-hökumət təşkilatı tərəfindən ilkin təşəbbüs qrupunun yaradılması məqsədi ilə bu gün yığıncaq keçirilib. Yığıncaqda həmkarlar ittifaqlarından və QHT-lərdən 4002 təşəbbüsçünü təmsil edən 402 nümayəndə iştirak edib.İclasda Konstitusiyaya təklif edilən dəyişikliklər yüksək qiymətləndirilib.

AHİK-in sədri, Milli Məclisin deputatı Səttar Mehbalıyev Azərbaycan Konstitusiyasına sonuncu dəyişikliyin 2009-cu ildə edildiyini vurğulayıb. Sonuncu dəyişiklikdən ötən yeddi ildə Azərbaycanın sürətlə inkişaf etdiyini deyən S.Mehbalıyev əldə olunan uğuların Əsas Qanunun daha da təkmilləşdirilməsi zərurətini ortaya qoyduğunu bildirib. Konstitusiyaya dəyişikliklə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevin Referendum Aktı layihəsi ilə çıxış etdiyini deyən AHİK sədri həmin sənəddə Konstitusiyanın 23 maddəsində dəyişiklik edilməsinin, 6 yeni maddənin əlavə olunmasının nəzərdə tutulduğunu söyləyib.

S.Mehbalıyev bildirdi ki, referendumla bağlı təşviqat qrupunun yaradılması məqsədilə ictimai birliklər və təşkilatlar yığıncaqlar keçirib, öz nümayəndələrini müəyyən ediblər. Bugünkü yığıncağa AHİK və 24 QHT-ni təmsil edən 401 nümayəndə qatılıb. Qeyd etdi ki, Azərbaycan Prezidenti İlham Əliyevin prezident olduğu illərdə Azərbaycan dövləti kifayət qədər güclənib. Bildirilib ki, zaman keçdikcə bütün ölkələrdə konstitusiyaya dəyişikliklər referenduma çıxarılır. Bu gün ehtiyac yaranıb ki, Azərbaycan Konstitusiyasına müvafiq dəyişikliklər olsun və bu dəyişikliklər çox mütərəqqi dəyişikliklərdir. Vurğulanıb ki, Konstitusiyaya təklif edilən bu dəyişikliklər Azərbaycan dövlətinin daha da güclənməsinə xidmət edəcək.Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklərin ali məqsəd və məramı nəzərə alınaraq təşəbbüs qrupunun "Vətəndaş cəmiyyəti" təşəbbüs qrupu adlandırılması qərara alınıb.Təşəbbüsçülərin yığıncağında Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq təşəbbüs qrupunun 25 nəfər səlahiyyətli nümayəndəsi və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi təyin olunub, habelə yaradılan təşəbbüs qrupunun qeydiyyatdan keçməsi məqsədilə Mərkəzi Seçki Komissiyasına bildiriş təqdim edilməsi haqqında qərar qəbul edilib.

Yığıncağın keçirilməsi üçün yetərsay müəyyən olunduqdan sonra sədr və katib seçilib, gündəlik səsə qoyularaq təsdiq edilib.

Sonra Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni dövlətimizin başçısının təşəbbüsü ilə irəli sürülən Referendum Aktı layihəsinə Konstitusiya Məhkəməsi tərəfindən rəy verildiyini deyib. O, əsası ulu öndər Heydər Əliyevin qoyduğu uzaqgörən siyasətin Prezident İlham Əliyevin uğurla həyata keçirməsi nəticəsində ölkəmizdə digər sahələrlə yanaşı, vətəndaş cəmiyyəti institutlarının da sürətli inkişafı üçün əlverişli şəraitin yaradıldığını deyib, bu istiqamətdə görülən işlərdən danışıb.



Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini Cəlil Xəlilov çıxış edərək, 2016-cı il avqust ayının 2-də Respublika Veteranlar Təşkilatında Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı ümumxalq səsverməsində (referendumda) təşviqat qrupu qismində iştirak etmək üçün Respublika Veteranlar Təşkilatı tərəfindən təşəbbüs qrupunun yaradılması məqsədilə təşəbbüsçülərin yığıncağı keçirildiyini qeyd etdi. Respublika Veteranlar Təşkilatının öz sıralarında veteranlar ordusu kimi böyük bir qüvvəni birləşdirən ictimai təşkilat olaraq referendumda fəal iştirak edəcəyinə əminliyini ifadə etdi. O cümlədən, ölkə veteranlarının Azərbaycanın ictimai və siaysi həyatının hər bir anında fəal iştirak etdiyini və onların həmişə ölkə rəhbərliyini, dövlət siyasətimizi dəstəklədiklərini vurğuladı.

Daha sonra, Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzinin rəhbəri Rufiz Qonaqov, "İrəli" İctimai Birliyinin sədri Mirhəsən Seyidov, "Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə" İctimai Birliyinin sədri Emin Həsənli Referendum Aktı layihəsində dövlətçiliyin möhkəmləndirilməsi, seçkili orqanlara seçilmək üçün yaş həddinin götürülməsi, habelə Silahlı Qüvvələrimiz ilə bağlı müddəaların əhəmiyyətini yüksək qiymətləndiriblər. Qeyd olunub ki, bu gün Azərbaycanda güclü xalq-iqtidar həmrəyliyi mövcuddur. Azərbaycan cəmiyyəti, o cümlədən veteranlar, gənclər, qaçqın və məcburi köçkünlər və digər təbəqədən olan insanlar dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti fəal dəstəkləyirlər. Bildirilib ki, Azərbaycan vətəndaşları referendumda fəal iştirak edəcəklər. Qeyd edək ki, iyulun 18-də Azərbaycan Respublikası Prezidenti tərəfindən Azərbaycan Respublikası Konstitusiyasının 153-cü maddəsi rəhbər tutularaq, "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının layihəsi Konstitusiya Məhkəməsinə rəy verilməsi üçün təqdim edilmişdi.Konstitusiya Məhkəməsinə göndərilən Referendum Aktı layihəsində Azərbaycanda birinci vitse-prezident və vitse-prezident postlarının yaradılması, prezidentin səlahiyyət müddətinin 5 ildən 7 ilə artırılması, prezidentə Milli Məclisi buraxmaq və növbədənkənar prezident seçkilərinin elan edilməsi səlahiyyətinin verilməsi, prezident seçkilərində yaş məhdudiyyətinin aradan qaldırılması, parlament seçkilərində iştirak üçün yaş həddinin 25-dən 18- ə enməsi və digər mövzular əhatə olunmuşdur.

Çıxışlardan sonra gündəlikdə duran məsələlər müzakirə edilib. Müzakirələr nəticəsində referendum üzrə 25 nəfərlik tərkibdə "Vətəndaş cəmiyyəti" adlı təşəbbüs qrupu yaradılıb. Qrupun səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri təyin olunub. Təşəbbüs qrupunun səlahiyyətli nümayəndəsinə referendumla bağlı qrupun adından çıxış etmək üçün notarial qaydada vəkalətnamə verilməsi məsələsi də təsdiqlənib. "Vətəndaş cəmiyyəti" təşəbbüs qrupunun səlahiyyətli nümayəndələrinə eyni adlı təşviqat qrupunda səlahiyyətli nümayəndəlik hüququ verilməsi barədə qərar qəbul edilib.

Sonda "Vətəndaş cəmiyyəti" adlı təşəbbüs qrupunun yaradılması barədə Mərkəzi Seçki Komissiyasına müraciət göndərilməsi qərara alınıb.

# Şəhidlərin adından başqa məqsədlərlə istifadə yolverilməzdir



***Azərbaycan xalqı Vətən, torpaq uğrunda, xalqının, millətinin azadlığı və sabahı yolunda canından keçən şəhidləri və qəhrəmanları ilə daim qürur duyub. Tariximizin bütün mərhələlərində yetişən bu insanlar bizim milli kimliyimizin daşıyıcıları, xalqımızın var olmaq haqqını dünyaya nümayiş etdirən şəxslər olaraq dünən də, bu gün də nəsillərə nümunədirlər.***

Cari il aprel ayının 2-5 arasında erməni silahlı bölmələrinin atəşkəs rejimini pozması, mülki əhaliyə zərər vurması ilə başlanan və Azərbaycan əsgərinin layiqli cavab zərbəsi nəticəsində düşmənin darmadağın olunduğu hadisələr xalqımızın şəhidlik və qəhrəmanlıq taixinə yeni səhifələr yazdı. Azərbaycan dövləti və xalqı şəhid övladlarını etiramla son mənzilə yola saldı. Xüsusilə Müdafiə Nazirliyinin rəhbərliyi və yüksək rütbəli zabitləri bu tədbirlərin təşkilatçıları və ən fəal iştirakçıları oldular.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması, erməni işğalçılarının cəbhə xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması zamanı göstərdikləri igidliyə görə xüsusi fərqlənən bir qrup Azərbaycan hərbçisi 2016-cı il aprelin 19-da Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanları ilə mükafatlandırıldılar. Onlardan 3 nəfəri ən yüksək fəxri ada, "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görüldü, digər hərbçilərimiz "Azərbaycan Bayrağı" və "Vətənə xidmətə görə" ordenləri, "Vətən uğrunda", "İgidliyə görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif olundular. Bir qrup hərbçi isə Müdafiə Nazirinin və yerli birləşmələrin komandirlərinin əmri ilə təltif edildilər. Şəhidlərimizin ailə üzvləri və doğmalarının sosial problemlərinin həlli ilə əlaqədar müvafiq qanunvericiliyə uyğun olaraq göstərişlər verildi, lazımi addımlar atıldı, digər tədbirlər görüldü.

Şəhid ailələri, müharibə əlliləri və döyüşlərdə fərqlənmiş digər şəxslər daim Azərbaycan dövlətinin qayğısı ilə əhatə olunurlar. Şəhidlərə ehtiram, şəhid ailələrinə diqqət və qayğı Azərbaycanda dövlət tərəfindən həyata keçirilən və prioritet xarakter daşıyan siyasətdir. Hazırda bu dövlət siyasəti ölkə rəhbərliyi tərəfindən uğurla gerçəkəşdirilir. Bu baxımdan, son vaxtlar ölkənin müxtəlif KİV-lərində xüsusilə ayrı-ayrı saytlarda cari il aprel ayının 2-5 arasında erməni silahlı bölmələrinin hücumlarının qarşısını alarkən həlak olmuş əsgər və zabitlərimizin ailə üzvlərinə və doğmalarına dövlət orqanları tərəfindən biganəlik göstərildiyi, onların müəyyən problemlərlə qarşılaşdıqları bardə həqiqəti əks etdirməyən məlumatların yayılması ciddi narahatlıq doğurur. Faktların təhlili göstərir ki, şəhid ailəsinin hər hansı probleminin guya dövlət orqanlarının şəhid ailələrinə biganəliyi kimi qələmə verilərək ictimailəşdirilməsi məqsədli xarakter daşıyır. Müdafiə Nazirliyinin, yaxud digər dövlət orqanının fəaliyyətinə kölgə salmaq niyyəti güdülən bu məlumatların əksəriyyəti real faktlara əsaslanmasa da, ictimai rəyi çaşdırır, insanlarda, xüsusilə yetişməkdə olan gənc nəsldə inamsızlıq yaradır. Digər tərəfdən, Silahlı Qüvvələrin döyüş ruhuna, mənəvi-psixoloji hazırlığına mənfi təsir göstərən belə məlumatların yayılmasının müharibə şəraitində yaşayan bir ölkə üçün nə demək olduğunun yəqin ki, geniş izahata ehtiyacı yoxdur. Respublika Veteranlar Təşkilatı gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi ilə məşğul olan İctimai Birlik kimi belə zərərli münasibətin digər mənfi nəticələr, o cümlədən gənc nəsildə ruh düşkünlüyü doğura biləcəyi qənaətindədir. Məhz qeyd olunanlara görə, biz hansısa məmurun işinə məsuliyyətsiz yanaşması ucbatından şəhidin ailəsinin hansısa problemlə üzləşməsindən narahatlıq keçirir, bunu yolverilməz hesab edirik. Şəhid ailəsi dövlət orqanlarında yalnız qayğıkeşliklə qarşılaşmalıdır. Çoxsaylı faktlar göstərir ki, xalqına, Vətəninə xidmət yolunda həlak olmuş insanların ailələri məhz belə münasibətlə əhatə ediliblər. Vətən, torpaq uğrunda canından keçən şəhidlərimizin adının əbədiləşdirilməsini hər birimiz, xüsusilə doğmaları və yaxınları istəyirlər. Ancaq yəqin hər birimiz belə bir həqiqəti də qəbul etməliyik ki, təltiflər göstərilmiş xidmətlərə uyğun olmalıdır. Azərbaycanın müvafiq dövlət orqanları ilə bağlı qanunvericilikdə, xüsusilə normativ sənədlərdə bu qaydalar və standartlar öz dolğun əksini tapmışdır. Bəzən şəhid ailələrinin şəhidin layiq olduğu fəxri ad, orden və medallarla təltif edilməsi üçün dövlət orqanlarına müraciətini tirajlayanlar məsələnin mahiyyətinə varmadan Müdafiə Nazirliyini günahlandırırlar. Doğrudur, bizlər və şəhidin ailəsi üçün hər bir şəhid həqiqi qəhrəmandır. Çünki, o, canını Vətən uğrunda qurban verib. Ancaq, hərbi qulluqçuların mükafatlandırılması onun döyüş zamanı göstərdiyi xidmətlərin komandalıq tərəfindən ciddi araşdırılaraq qiymətləndirilməsi ilə baş tutur. Bu mənada, fəxri adlar kiminsə, hətta kimlərinsə istəyi ilə deyil, məhz müvafiq normalar nəzərə alınmaqla verilir. Bu tipli məsələlər yalnız hüquqi əsası olduqda qaldırıla bilər. Əks halda çaşqınlıq yaranır, hansısa rəsmi şəxs qərəzçikikdə günahlandırılır. Belə məsələlri məqsədli qabardanlar açıq şəkildə insanların etibarından istifadə etməklə, onların hisləri ilə oynayırlar.

Respublika Veteranlar Təşkilatı Müdafiə Nazirliyi, eləcə də digər dövlət orqanları ilə sıx əlaqəli şəkildə işləyən İctimai təşkilat kimi şəhid ailələrinin daim diqqət mərkəzində olduğunu yaxşı bilir. Bir çox hallarda şəhid ailələri və onların yaxınları həm həmin dövlət orqanlarına, həm də bizə və digər ictimai birliklərə müraciət edərək müəyyən problemlərinin həllində kömək istəyirlər. İstər dövlət orqanları, istərsə də bizlər bu məsələlərə yüksək həssaslıqla yanaşır, onların müsbət həllində qarşılıqlı səylərimizi əsirgəmirik. KİV nümayəndələrinə müraciətimiz də bununla bağlıdır ki, hər hansı problemi dəqiqləşdirmədən, tələsik nəticələr çıxarmasınlar. Əksinə aldıqları məlumatları müvafiq orqanlarla dəqiqləşdiməklə onlar məsələ haqında daha müfəssəl və obyektiv informasiyalar əldə edə bilərlər. Bununla onlar həm şəhid ailələrinə həqiqi dayaq olar, həm də sonradan hansısa yanlışa görə təkzib verməkdən özlərini sığortalayardılar. Yeri gəlmişkən, məhz bu işə önəm verilərək Müdafiə nazirinin müvafiq əmri ilə bu ilin əvvəlində nazirliyin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsində "Sosial müdafiə və şəhid ailələri ilə iş bölməsi"nin yaradılmışdır. Artıq bir neçə aydır ki, bu bölmə uğurla fəaliyyət göstərir və məsələ ilə əlaqədar KİV-in istənilən suallarının cavablandırılmasına hazırdır.

***Cəlil Xəlilov***
***Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini ehtiyatda olan polkovnik***

# *İsmayıllı Rayon Veteranlar Təşkilatının növbədənkənar konfransı keçirilib*

İsmayıllıdakı Heydər Əliyev Mərkəzində Rayon Veteranlar Təşkilatının növbədənkənar konfransı keçirilib.

Dövlət qulluğu veteranı Valeh Salehov konfransı açaraq, veteranların ictimai-siyasi həyatımızdakı fəal rolundan danışıb.

Rayon icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqov, Respublika Veteranlar Təşkilatının şöbə müdiri, polkovnik Adil Haqverdiyev, təşkilatın rəyasət heyətinin üzvü, polkovnik Həsən Əmirov və başqaları çıxış edərək, Prezident İlham Əliyevin veteranlara göstərdiyi qayğıdan danışıb, idarəetmədə, ideoloji və siyasi tərbiyə işlərində veteranların fəal rolundan bəhs ediblər.



Konfransda Respublika Veteranlar Təşkilatı, veteranların sosial müdafiəsi şöbəsinin müdiri, ehtiyatda olan polkovnik Kamal Əliyev icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqova "Veteran həmrəyliyi" medalını təqdim edib.

Növbədənkənar konfransda təşkilatı məsələyə baxılıb, Əlaləm Babayev Rayon Veteranlar Təşkilatının yeni sədri seçilib.

# Multikulturalizmə qısa baxış



Tərkib hissəni tolerantlıq təşkil edən multikulturalizm Avropada XVII əsrdə yayılmağa başlamışdır: katoliklərlə-provoslavlar arasında davam edən otuz illik müharibədən sonra bağlanılan sülh müqaviləsinə görə, bütün dinlər müqavilə imzalanan gündən tolerant yaşamalı bir- birinə dözümlü olmalıydılar.

"Multikulturalizm" termini Avropada yaransa da, XX əsrin sonlarından başlayaraq geriləməyə başladı. Çünki dünyanın aparıcı dövlətlərinin həyata keçirməyə başladıqları ikili standartlar siyasəti kəskin şəkildə ədalətsizlik, dini nifrət, ayrı seçkilik bu kimi təhlükəli amillərin yaranmasına təkan verdi. Bütün təhlükəli amillər Avropada mültikulturalizmin formalaşmasına maneəçilik törətdi.

Bu gün terrorçuların törətdikləri cinayətlərə görə məsuliyyət dünya birliyinin üzərinə düşür. XX əsrdə Qərbin dəstəyini hiss edən erməni terrorçuları müxtəlif ölkələrdə müsəlmanlara qarşı qırğınlar törədirdilər. "Asala" terrorçu təşkilatı 1975-1985 - ci illərdə 21 ölkənin 38 şəhərində 110-dan artıq terror aktları təşkil ediblər. Azərbaycan ərazilərində isə ermənilər 1988-1995-ci illərdə yüzlərlə terror törədib, nəticədə 1568 nəfər günahsız insan həlak oldu, 1808 nəfər yaralandı.

Erməni terrorçuların Azərbaycanlılara qarşı törətdiyi ən dəhşətli soyqırımlarından biri 1992-ci fevralın 26-da Xocalıda baş verdi. Bütün bəşəriyyətə qarşı törədilmiş bu cinatət nəticəsində əksəriyyəti qoca, qadın və uşaq olan 613 nəfər dinc əhali məhv edildi.

Ermənilərin bir əsrdən artıq azərbaycanlılara və türklərə qarşı davam edən terrorçuluq bütün dünya birliyinin gözü qarşısında həyata keçirildi. Azərbaycan torpaqlarının 20 faizinin işğalı 20 mindən artiq günahsız azərbaycanlının məhvi və bir milyondan artıq insanın qaçqın və köçkün düşməsi ilə nəticələndi. Qərbin ermənilərə verdiyi dəstək hal hazırda da davam etməkdədir. Əgər 2001-ci ildə yer kürəsində qaçqınların sayı 171 milyon idisə bu ğün onların sayı 244 milyona çatıb. Yalnız Suriyada gedən müharibədə 4,5 milyon insan qaçqın düşüb. Nəzərə alsaq ki, Suriya əhalisinin 91 faizi müsəlmandır.

Azərbaycanda 2016-ci ilin Mültikulturalizimi ili elan edilməsi dünya birliyinə bir sırası mesajdır: sülhə, əminamanlığa, ədalətə çağırışdır. 2016-ci ildə ölkəmizdə multikulturalizmi ili elan edilməsinin tarixi kökləri vardır. Ölkədə dözümlülük, dostluq və həmrəylik yaranmışdır.

Məlum olduğu kimi, Azərbaycan dünyaya iqtisadi cəhətdən çox sürətlə inkişaf edən bir ölkədir. İqtisadi inkişafın əsas səbəbi ölkədə olan sabitlikdir. Bu sabitliyi heç bir qüvvə poza bilməz. 15 may 2014-cu il tarixli sərancamı ilə Respublika Prezidenti İlham Əliyevin yaratdığı Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin apardığı işi isə xusisi qeyd etmək lazımdır.

Ölkə başçımızın Gəncədə "İmamzadə" dini kompleksində yaradılan şəraitlə tanış olarkən söylədiyi kimi "Bütün bu işlərin bir məqsədi var ki, ilk növbədə ölkəmizin uğurlu inkişafı təmin edilsin. Dünya miqyasında Azərbaycanın rolu və bizə olan hörmət, inam, rəğbət daha da artsın".

***Yəhya Ağayev,***
***Nizami Rayon Veteranlar Təşkilatının sədri***

# Qəbələ rayonunda Milli Qəhrəman haqqında film nümayiş etdirilib

Qəbələ rayonundakı N saylı hərbi hissədə Azərbaycanın Milli Qəhrəmanı, şəhid batalyon komandiri, məşhur pəhləvan, mayor Əliyar Əliyev haqqında "Yaddaş" studiyasında çəkilmiş "Pəhləvan komandir" sənədli filminin təqdimatı olub.

Yazıçı-publisist, şəhid Əliyar Əliyevin həyat və döyüş yoluna həsr edilmiş "Dağlar oğlu" kitabının müəllifi Hacı Nərimanoğlu çıxış edərək igid komandir, məşqçi və güləşçi, idman ustası Azərbaycanın Milli Qəhrəmanı Əliyar Əliyev haqqında xatirələrini danışıb.



Filmin nümayişindən sonra çıxış edən əsgər və zabitlər Əliyar Əliyev kimi qəhrəmanları özlərinə örnək saydıqlarını, belə tədbirlərin hərbi vətənpərvərlik, döyüş, mənəvi ruhun gücləndirilməsində mühüm rolundan danışıblar.




Hərbi hissə komandanlığı tədbirin təşkilinə verdiyi dəstəyə görə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasına təşəkkürünü bildirib.

"Pəhləvan komandir" adlı sənədli filmin nəfis tərtibatlı diskləri və "Dağlar oğlu" kitabının nüsxələri hərbi hissənin kitabxanasına, əsgər və zabitlərə hədiyyə edilib.

***Şahnəzər Bəşirov***

# İsa Ağamusa oğlu Hacıyev



“1941-1945”-ci illər müharibəsinin veteranı və “Əmək veteranı” İsa müəllim 1929-cu il noyabr ayının 23-də Kürdəmir rayonunun Yenikənd kəndində anadan olmuşdur. Ağır müharibə illərində 1942-ci ildən 1946-cı ilin avqust ayma kimi əvvəlcə kolxozda katib, hesabdar, sonralar isə Kürdəmir rayon suvarma sistemləri idarəsinin Ağsu şöbəsində hidrometr vəzifəsində işləmişdir. Müharibə illərində qüsursuz işlədiyi üçün SSRİ Ali Sovetinin fərmanı ilə “Rəşadətli Əməyə görə” medalı ilə təltif olunub (1946). 1952-ci ildə N.Nərimanov adına Tibb İnstitutunu bitirmişdir. Həkim kimi ilk əmək fəaliyyətini-Gəncə Vilayət Səhiyyə İdarəsindən başlamış, sonralar Xaldan rayon malyariya ilə mübarizə idarəsində, Xaldan rayon həlıftxanasında, Mingəçevir şəhəri 2 saylı poliklinikada baş həkim və Ağsu rayon sanitar-xəstəxana birləşməsinin baş həkimi işləmişdir. 1963-cü ildə Ağsu rayonunun ləğv edilib Kürdəmir rayonu ilə birləşdirilməsi ilə əlaqədar, birləşmiş rayona baş həkim təyin olunmuş və bu vəzifədə 1977-ci ilin mart ayına kimi çalışmışdır. (Bütün yerdəyişmələr rayonların ləğvi ilə əlaqədar rayon partiya komitələrinin bürosunun qərarları və respublika səhiyyə nazirliyinin əmri ilə aparılmışdır.)

İsa müəllim S.M.Kirov adına Elmi-Tədqiqat Tibbi Parazitalogiya və Tropiki təbabət institutunun dissertantı kimi praktik işlə yanaşı, elmi axtarışla məşğul olmuş və 1971-ci ildə Tibb elmləri namizədi-alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir.

İsa müəllim 1981-ci ildə S.M.Kirov adına elmi-Tədqiqat Tibbi-Parazitalogiya və Tropik-Təbabət institutunun elmi şurası tərəfindən baş elmi işçi vəzifəsinə seçilmişdir. İsa müəllim institutumuzda məhsuldar tədqiqatçı alim kimi tanınır. O, ölkəmizdə və ondan kənarda nəşr olunmuş 100-dən çox elmi əsərin, 30-dan çox elmi-kütləvi məqalələrin, “Malyariya ilə mübarizə və onun profilaktikasına aid” yazılmış 8 metodiki göstərişlərin, bir səmərələşdirici təklifin, 2 dərs vəsaitinin, 2 monoqrafiyanın, malyariyanın mikroskopik diaqnostikası atlasının, ağır zəhmət tələb edən “Azərbaycanda malyariya” biblioqrafık ədəbiyyat göstəricisi (1836-2002-ci illəri əhatə edir) kitabının, Malyariya adlı “Mühazirəçiyə kömək” və “Tibb işçiiəri üçün yaddaş” kitabçalarının müəllifidir.O, praktikada və elmi araşdırmalarda qüsursuz və səmərəli fəaliyyətinə görə “Rəşadətli əməyə görə” medalı, “Səhiyyə əlaçısı” nişanı, Respublika Ali Sovetinin, respublika səhiyyə nazirliyinin və respublika tibb işçiləri həmkarlar Təşkilatımn fəxri fərmanına layiq görülüb. İnstitut rəhbərliyi tərəfindən dəfələrlə təşəkkür alıb. İsa müəllim “1941-1945”-ci illər müharibəsinin veteranı kimi yubley medalları və “1941-1945-ci illər müharibəsinin veteranı” nişanı ilə təltif olunub. Hazırda onun ahıl yaşda olmasına və səhhətində olan problemlərinə baxmayaraq , bu gün də o, elmi araşdırma işini qüsursuz və səmərəli davam etdirir. Kollektivimiz adından və şəxsən öz adımdan ona möhkəm sağlamlıq, uzun ömür, elmi-araşdırmalarında yeni uğurlar arzulayıram.

***A.Əsədova,***
***V.Axundov adına METTP institutunun veteranlar şurasının sədri, dosent***

# Prokurorluqda işləmiş ermənilərin xisləti

Uzun illər hüquq-mühafizə orqanı olan prokurorluqda müxtəlif vəzifələrdə işləmiş bir şəxs kimi mənimlə bir prokurorluqda çalışan erməni millətindən olan “əməkdaşların fəaliyyətləri” barədə xatirələrimi sizlərlə bölüşməyi vacib və lazım bilirəm.

Belə ki, 1979-cu ilin sonu 1980-cı ilin əvvəllərində milliyyətcə erməni olan İqor Dalakyan, Georgi Baqdasarov, Sonya Qeyvandova ilə Bakı şəhərinin Nəsimi rayon prokurorluğunda işləmişik. Qeyd etdiyim ermənilərdən G.Boqdasarov həmin rayonun prokuror müavini, (müxtəlif aylarda və illərdə, hətta prokuror vəzifəsini icra etmişdi) S.Qeyvandova prokurorluğun böyük müstəntiqi və İ.Dalakyan isə müstəntiq vəzifələrində çalışmışdılar.

1979-cu ilin yaz-yay ayları olardı. Nəsimi rayon prokurorunun böyük köməkçisi vəzifəsində işləyərkən icratıma Qaloyan soyadında şəxsin ərizəsi daxil oldu, Həmin ərizədə Qaloyan azyaşlı qızı Yelenanın kor bağırsağındakı ağrılarla Bakı şəhər 1 saylı Mərkəzi Klinik Xəstəxanasının cərrahiyə şöbəsinə daxil olması, həkim-cərrah Zöhrə Babayeva tərəfindən kor bağırsağın kəskin ağrıları dioqnozu qoyulması ilə əlaqədar əməliyyata məruz qalması və əməliyyatdan sonra ölməsi barədə şikayətlənirdi. Ərizə əsasında araşdırma apararkən müəyyən edildi ki, azyaşlı qızın analizi dəqiqləşdirilərkən onun sarılıq xəstəliyi keçirməsi barədə nə özü, nə də anası bir kəlmə də olsun söyləməmişlər. Həkim cərrahlar isə bu faktı bilmədiklərindən xəstənin hərarətinin yüksək olmasına, ümumi vəziyyətinə və bir sıra digər hallara əsasən Yelenanı əməliyyat etmişlər. Lakin cərrahi əməliyyatdan sonra azyaşlı Yelena Qaloyanın vəziyyəti yaxşılaşmamış və nəticədə o ölmüşdür. Bu hadisəni geniş təsvir etməyimin səbəbinin nə qədər vacib və zəruri olduğunu aşağıda yazdığım şərh və izahlardan biləcəksiniz.

Ərizədəki xüsusatları diqqətlə və hissə-hissə araşdırarkən müəyyən etdim ki, azyaşlı Y.Qaloyanın ölməsinə səbəb onun valideynlərinin və özünün uşaq ikən sarılıq xəstəliyi keçirməsini həkimlərdən gizlətmələri olmuşdur. Çünki Yelenanın ölümü ilə xəstəliyi arasında səbəbli əlaqə olduğundan həkim- cərrahın məsuliyyəti məsələsi mübahisə predmeti daşıyırdı. Lakin şikayətçi Qaloyanlar araşdırmanın nəticəsini gözləmədən müxtəlif instansiyalara - Bakı şəhər və Nəsimi rayon Partiya Komitələrinə yazılı şikayət etmişdilər. Onların ərizələrini xüsusi nəzarətə götürmüşdülər. Onu da bildirirəm ki, ərizələri nəzarətdə saxlamaqla göstərilən Partiya Komitələrinin məsul işçiləri və hətta Nəsimi rayon Partiya Komitəsinin ümumi şöbəsinin müdiri Tatavesova soyadlı şəxs işdə çox canfəşanlıq göstərir və tez-tez araşdırlanın nəticəsi ilə maraqlanırdılar. Araşdırmanın obyektiv və hərtərəfli aparılması şikayətçi tərəfi qane etmədiyinə görə Nəsimi rayon prokuroru vəzifəsini icra edən həmin rayonun prokuror müavini G.Boqdasarov ərizəni və toplanmış materialı heç bir əsas onadan icratımdan alıb, təhqiqatı başqa işçiyə həvalə etdi. Daha sonra erməni millətindən olan böyük müstəntiq, yəni S. Qeyvandovanın iştirakı və müdafiəsi nəticəsində azyaşlı Y.Qaloyanın ölüm faktı üzrə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 9-cu (səhlənkarlıq) maddəsi ilə həkimlər barədə cinayət işi başlanmış, işin istintaqı müstəntiq İ.Dalakyana tapşırılmışdır.

Nəsimi rayon Xalq məhkəməsinin hökmü ilə Zöhrə Babayeva 3 il müddətinə azadlıqdan məhrum etmək cəzasına məhkum edilməsi barədə hökm çıxardı. Həmin hökmü erməni millətindən olan çıxarmışdı. Onu da söyləyim ki, ermənilər məkrli niyyətlərinə nail olduqdan sonra sakitləşdilər və öz mənfur xislətlərini bir daha ortaya qoydular. Hadisələrin bu məcrada davam etməsi məni rahat buraxmır və daxilən vicdan əzabı çəkirdim.

İş üzrə təqsirli bilinən Zöhrə Babayevanın bir sıra instansiyalara haqlı şikayətindən sonra SSRİ Ali məhkəməsinin Rəyasət Heyəti tərəfindən hökmü ləğv edilib, məhkəməyə yeni baxışa verildi.

Bütün hadisələr də bundan sonra cərəyan etdi. fakt obyektiv, hərtərəfli araşdırma aparan bir prokror kimi məni qane etdiyinə görə hadisələrin sonu mərhələlərini səbrlə izləməyə başladım. Bakı şəhər 1 saylı Mərkəzi Klinik Xəstəxananın həkim-ordinatoru Zöhrə Babayeva barəsində cinayət işi şikayətçinin xahişi və tələblərini nəzərə alınaraq, təkrar məhkəmə baxışı üçün Bakı şəhəri Nizami rayonuna göndərilmişdir. Həmin cinayət işinə Nizami rayon Xalq məhkəməsinin sədri Lidiya Pavlovna Dotsenkona sədrlik edirdi. Həmin işə baxılarkən, dövlət ittihamını müdafiə edən prokuror kimi iştirak etdim və Zöhrə Babayevanın 1 il cəza çəkməsini nəzərə alıb, həbsdən azad edilməsinə nail oldum. Sonra isə həkim Zöhrə Babayeva məhkəmə qərarına əsasən tamamilə bəraət almış və həkim-ordinator vəzifəsinə, yəni əvvəlki iş yerinə bərpa olunmuşdur. Nəyahət el deyimi ilə söyləsək: “haqq nazildi, lakin üzülmədi”.

Sonda bildirmək istəyirəm ki, ermənilər xəbis, hiyləgər, mənfur niyyətlərinə heç bir vaxt çata bilməzlər. Ona görə ki, onlarla ardıcıl, müdrikcəsinə, səbrlə hər sahədə mübarizə apardıqda, nəticə etibarı ilə onlarla ədalət naminə qalib gəlmək olar, inşallah belə də olacaqdır. Göründüyü kimi həkim-ordinatorun yuxarıda şərh edilən cinayət işi üzrə haqq ədalət öz məntiqi nəticəsini tapmışdır.

***Fazil Hacıyev***

# Награды - сотрудникам "Бакинского рабочего"

Весной нынешнего года старейшей газете Азербайджанской Республики "Бакинскому рабочему исполнилось 110 лет. В эту дату вошла летопись четырех республик, которая нашла свое достойное отражение в истории Азербайджана. Военно-патриотическое воспитание одна из главных тем, которое постоянно освещается на страницах нашей газеты. Эта особая страница в творческой биографии нашего издания освещалась в годы первой мировой войны, гражданской войны, в годы АДР в защиту отечества была создана национальная армия и эта дата отмечается как день вооруженных сил независимой Азербайджанской республики. В годы Великой Отечественной войны воины из Азербайджана в жестоких сражениях с врагом, проявили мужество и совершили подвиги во имя Великой Победы. "Бакинский рабочий" поддерживает тесные творческие связи с Организацией ветеранов войны и труда, публикует обширные материалы на темы военно-патриотического воспитания. Решением президиума Организации Ветеранов Войны, Труда и Вооруженных Сил Азербайджанской Республики в связи с 110-летием со дня выхода первого номера республиканской газеты "Бакинский рабочий" наградил трудовой коллектив редакции и её сотрудников почетными грамотами, а главного редактора Рахмана Гаджиева почетной грамотой и медалью "Ветеранская солидарность".

В связи с этим в редакции состоялось торжественное мероприятие, в котором приняли участие главный редактор, его заместитель, журналисты, гости Организации Ветеранов Войны заведующий отделом военно-патриотического воспитания полковник в отставке Адиль Ахвердиев, капитан первого ранга Александр Гритченко. Приветствуя гостей, главный редактор Рахман Гаджиев сказал, что история "Бакинского рабочего" насыщена богатыми историческими событиями, фактами, которая бы составила многие тома отечественной историографии. В этом издании трудились журналисты разных национальностей и, которые своей деятельностью вписали в страницы родной газеты богатство идей, эстетических взглядов, культуры, освещали политическое, экономическое и духовное развитие общества советского периода. В этом ещё раз убеждаешься в том, когда знакомишься с архивными материалами, которые публикуются в нашей газете. Азербайджан советского периода стал по- настоящему родиной многих народов. В Азербайджане есть что-то волшебное, искреннее, что заставляет людей восторгать и любить эту землю, а при необходимости отдать жизнь за её территориальную целостность. Далее Р.Гаджиев отметил, что люди вашего поколения вносят достойный вклад по воспитание у молодежи высоких идейных установок и моральных качеств настоящих патриотов. Он пожелал ветеранам доброго здоровья и творческих сил в исполнении ветеранской миссии, благодарность председателю Организации ветеранов войны и труда генерал-майору Дадашу Рзаеву за внимание и доброе отношение к коллективу "Бакинского рабочего".





Заведующий отделом военно-патриотического воспитания Совета ветеранов и труда Азербайджанской республики полковник Адиль Ахвердиев от имени руководства общественной организации сердечно и тепло поздравил членов трудового коллектива с наградами. Главному редактору "Бакинского рабочего" Рахману Гаджиеву вручена медаль "Ветеранская солидарность" и почетная грамота, такие же грамоты были вручены остальным сотрудникам газеты. Далее полковник рассказал о годах учебы в высших военных учебных заведениях академии имени Фрунзе, службе в Афганистане, о своем участии в Карабахской войне, командовании бригадой, подготовке военных специалистов для независимого Азербайджана.

Капитан первого ранга Александр Гритченко вручил Рахману Гаджиеву, написанную им книгу "Победа и память", предисловие к ней написал генерал Дадаш Рзаев, а также рецензию о ней, опубликованную в газете "Вышка", "Каспий", "Ветеран". Затем ветеран от имени генерал-майору Дадаш Рзаева выразил благодарность, признательность редакции за публикацию материалов о военно-патриотическом воспитании молодого поколения республики. Затем он рассказал о своем боевом пути на фронтах Великой Отечественной войны, прошедшем через Черноморский, Азовский, Дунайские флотилии. Освобождал народы Румынии, Болгарии, Югославии, Венгрии, Чехословакии, Австрии от фашизма. После войны его приняли в военную газету, затем учеба в Москве в Академии редакторский отдел, после окончания его послали работать на Дальний восток. В июне 1953 года получил назначение в Азербайджан, где его назначили заместителем главного редактора ежедневной газеты "Каспиец". В январе 2017 года ветерану будет 95 лет, из них 63 года своей жизни он посвятил нашей республике. У него было много друзей в газете "Бакинский рабочий" Ефим Мейерович, Провалинский, Купцова, Лев Полонский. Затем ветеран наизусть привел цитаты Президента Азербайджана Ильхама Алиева, маршала Советского союза К.Жукова, о подвигах советских воинов, сынов и дочерей нашей республики в годы войны.

В заключении участники встречи в редакции "Бакинского рабочего" сфотографировались на память.

**Зейтулла *ДЖАББАРОВ***

# В РОССИИ НАШЛИ ОСТАНКИ АЗЕРБАЙДЖАНСКОГО СОЛДАТА

## Ищут его родных

В редакцию Vesti.Az поступило письмо от жительницы Санкт-Петербурга по имени Александра, которая просила оказать содействие в поисках родственников азербайджанского красноармейца.

В письме говорится, что в ходе поисковых работ поисковым отрядом СПбПУ "Доброволец Политех" на территории Кировского района Ленинградской области были обнаружены останки азербайджанского бойца Красной Армии, погибшего в боях за Ленинград.

Об этом свидетельствует наличие у солдата смертного медальона, вкладыш которого (в связи с плохой сохранностью) удалось прочитать только частично. Так, выяснилось, что красноармейца зовут Ибрагим, отчество содержит в себе "...баз...ч", а фамилия "...льев". Год рождения - 1915.

Отмечается, что в графе "Уроженец" написано следующее: Азербайджанская ССР, г. Баку, Шамахинский район, с. Такульн.. . В сведениях о семье указана фамилия Велиев, адрес тот же. Однако, скорее всего - вкладыш медальона заполнялся писарем с большим количеством ошибок.

Как сообщила Александра, задав поиск в Обобщенном банке данных "Мемориал", удалось установить данные о солдате:

***Фамилия:* Великулиев**

***Имя:* Ибрагим**

***Отчество:* Аббас**

***Дата рождения/Возраст:* __.__.1915**

***Дата и место призыва:* 07.05.1942 Шемахинский РВК, Азербайджанская ССР, Шемахинский р-н**

***Воинское звание:* рядовой**

***Причина выбытия:* пропал без вести**

***Дата выбытия:* __.06.1943**

***Название источника информации:* ЦАМО**

***Номер фонда источника информации:* 58**

***Номер описи источника информации:* 977520**

***Номер дела источника информации:* 723**

В донесении также



указано имя брата - Абасов Гаджиага, который проживал в селе Дахкеланы, Маразинского района.

# В СЕВАСТОПОЛЕ ПЯТЕРО СОЛДАТ "ВЕРНУЛИСЬ" С ВОЙНЫ, ОДИН - РОДОМ ИЗ БАКУ

***Во время проведения работ сапёры МЧС обнаружили останки бойцов Красной Армии. Одного из них удалось идентифицировать: известны фамилия и адрес.***

Севастопольские пиротехники МЧС обнаружили останки бойцов Красной Армии и склад боеприпасов в Балаклавском районе.

Совсем недавно специалисты МЧС Севастополя проводили работу по обезвреживанию крупной авиационной бомбы времён Великой Отечественной войны на виноградниках в Балаклаве. Тогда боеприпас пришлось обезвреживать на месте обнаружения из-за его конструктивных особенностей взрывателя. Пиротехники МЧС справились со своей работой на отлично. После завершения работ были проведены дополнительные меры по обследованию близлежащей местности на наличие других взрывоопасных предметов и расширена территория поиска. Пиротехники не ошиблись в своих предположениях - в первый же день были найдены останки двух бойцов Красной Армии, боекомплект и личные вещи. Спасатели пригласили к месту проведения работ отряд "Севастополь" объединения поисковых отрядов "Долг", который продолжил раскопки и обнаружил еще трех защитников Севастополя.

Очень часто, даже найденных людей, воевавших за мирное небо над нашими головами, не могут опознать, но на этот раз - повезло, при солдатах было найдено два медальона, а в рядом расположенной землянке лежали каски с подшлемниками, на которых ручкой были написаны фамилии, которые пока разобрать сложно. Правда один из медальонов оказался пустым и только во втором находились две записки: на обрывке газеты "Красная звезда" были четко видна надпись с личными данными бойца - Мамедов Г.М., город Баку, ул. 13-я Нагорная (или В. Нагорная), дом 80, а вот другую записку сразу прочитать не удалось.



"Это уникальный случай, потому что из пяти солдат мы можем сразу же узнать личность одного, а возможно и даже трех солдат. При них был обнаружены предметы амуниции и личные вещи. Также наши специалисты нашли боевой комплект, в который входили патроны к винтовке Мосина, гранаты РГ-43 и Ф-1. Мы считаем, что солдаты погибли в результате мощного артиллеристского обстрела, либо мощной бомбардировки в июне 1942 года при обороне города. После завершения раскопок останки найденных защитников города-героя, чьи имена не удастся установить, со всеми почестями предадут земле", - добавил Роман Гальченко, представитель отряда "Севастополь" объединения поисковых отрядов "Долг".



Недалеко от найденных солдат лежало множество боеприпасов, которые, видимо, в результате взрыва разбросало в радиусе нескольких десятков метров.

Всего было обнаружено более 85 взрывоопасных находок: артиллерийские снаряды калибра 76,2 мм, миномётные мины - 50мм, 81 и 82 мм, ручные гранаты разных образцов, взрыватели, запалы и стрелковые патроны.

"Все взрывоопасные предметы, обнаруженные во время раскопок мы вывезли для дальнейшего уничтожения. Почти все они были советского производства и только несколько - трофейные снаряды немецкой армии. Мы не часто находим вместе с боеприпасами солдат, которые защищали город-герой во время Великой Отечественной войны, но когда это происходит мы рады, что сейчас еще пятеро солдат все же "вернулись" с войны. Именно поэтому, мы всегда взаимодействуем с поисковыми отрядами. Стоит отметить, что и они во время своих работ, в случае обнаружения боеприпасов, сразу же сообщают об этом нам, тем самым помогая очистить наш город от опасного наследия времён Великой Отечественной войны", - пояснил начальник части пиротехнических и специальных водолазных работ Специализированного отряда Главного управления МЧС России по городу Севастополю Константин Мельник.

С начала года пиротехники Главного управления МЧС России по г. Севастополю обезвредили свыше трех тысяч боеприпасов времен Великой Отечественной войны.

# Dövlət və cəmiyyət qarşısında məsuliyyət hiss edən həkim

Mən uzun müddət bel ağrılarından, hər iki ayaq pəncəsinin şişməsindən, kəmərvari dəmrov və digər xəstəlikdən əziyyət çəkirdim.

Uzun müddət Dövlət Təhlükəsizlik orqanlarında xidmət etdiyim üçün, eləcədə müharibə və silahlı qüvvələr veteranı olduğuma görə göndərişə əsasən Dövlət Təhlükəsizlik Xidmətinin Hospitalında həkim-dermatoloq vəzifəsində çalışan Alışanov İntiqam Yunis oğluna müraciət etdim və müalicəmlə ciddi məşğul olunmasını ondan xahiş etdim.

Alışanov İntiqam Yunis oğlu 1974-cü ildə Laçın rayonunun Ağbulaq kəndində anadan olmuşdur. 1991-ci ildə orta məktəbi bitirdikən sonra elə həmin il N.Nərimanov adına Tibb Universitetinə qəbul olmuş, 1997-ci ildə Bakı şəhər 1 nömrəli Dəri zöhrəvi Dispanserində İnternatura kursu keçib həkim dermatoloq ixtisasına yiyələnmişdir. 2004-cu il Dekabr ayında 2006-cı il iyul ayına kimi Azərbaycan Respublikası Müdafiə Nazirliyinin N-saylı hərbi hissəsində həqiqi hərbi xidmətdə olmuşdur, ehtiyatda olan tibbi xidmətinin baş leytinantıdır.

Həkim Alışanov İntiqam Yunis oğlu 2007-2010-cu illər ərzində Bərdə rayon Dəri -Zöhrəvi Dispanserində, 2010-cu ildən 2016-cı ilə kimi Bərdə Diaqnostika Mərkəzində həkim dermatoluq vəzifəsində çalışmışdır. Hal-hazırda Dövlət Təhlükəsizlik Hospitalında həkim-dermatoloq ixtisası üzrə işləyir, eyni zamanda Ə.Əliyev adına Azər-



baycan Dövlət həkimləri Təkmilləşdirmə instutunda Dəri zöhrəvi xəstəlikləri kafedrasının aspirantıdır.

Alışanov İntiqam Yunis oğlu təcrübəli peşakar həkim kimi üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlir.

İş otağında tibb elminə aid çoxlu sayda ədəbiyyat vardır və onlardan lazımı vaxtlarda xəstələri sağaltmaq üçün səmərəli istifadə edir.

Son dərəcə sadə, qayğıkeş, diqqətcil bir həkimdir, həmişə xəstələrin qayğısı ilə yaxından maraqlanır, onları narahat edən problemlərin vaxtından əvvəl həll olunmasına köməklik göstərir. Məhz bu xüsusiyyətlərə görə həkim kollektivi arasında böyük hörmət və nüfuza malikdir.

Qeyd etmək lazımdır ki DTX-nin Hospitalında çalışan həkimlərdən Bağırova Nigar, Paşayeva Sara, Osmanova Günay və digərləri öz vəzifə borclarını vicdanla yerinə yetirdiklərinə görə onlara öz dərin təşəkkür və minnətdarlığımı bildirirəm.

***Adil Babaşov***
***Respublika Veteranlar Təşkilatının baş mütəxəssisi, müharibə və silahlı qüvvələr veteranı, polkovnik-leytenant***

# TƏBRİK EDİRİK

İkinci dünya müharibəsi veteranı
**Paşayev Elmar Fərəc oğlunu**
100 yaşının tamam olması münasibətilə təbrik edirik, ona can sağlığı arzulayırıq.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini
**Xəlilov Cəlil Malik oğlunu**
doğum günü münasibətilə təbrik edir, ona can sağlığı, işlərində uğurlar və nailiyyətlər arzu edirik.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının gənclərin hərbi vətənpərvərlik tərbiyəsi üzrə şöbə müdiri
**Haqverdiyev Adil İsmayıl oğlunu**
doğum günü münasibətilə təbrik edir, can sağlığı, uğurlar arzu edirik.

# Arterial təzyiqi normada saxlamağın yolları



Statistikaya əsasən dünyada 40 yaşdan yuxarı praktik olaraq 50% insan yüksək təzyiqdən əziyyət çəkir.

Yüksək arterial təzyiq orqanizm üçün çox ziyanlıdır. Bu ürəyin, damarların, böyrəklərin, gözlərin sağlamlığına böyük ziyan vurur, infarkt, insult, böyrək çatışmamazlığı, korluq kimi ağır pozulmalara səbəb olur.

Arterial təzyiqi mütləq normada saxlamaq lazımdır. Bunun üçün xüsusi preparatlar mövcuddur. Belə preparatları xəstəyə həkim təyin etməlidir.

Bəzi bitkilər də təzyiqi aşağı salmağa kömək edə bilər. Lakin nəzərə almaq lazımdır ki, bu bitkiləri yalnız köməkçi vasitə kimi (əsas müalicə ilə parallel olaraq) istifadə etmək olar.

Təzyiqi salmağa kömək edən bitkilər bunlardır:
- Nanə
- Yemişan
- Pişikotu
- İtburnu
- Qaragilə (meyvəsi və yarpaqları)
- Qarağat yarpaqları
- Melissa
- Şüyüd
- Zirinc (yarpaqları və meyvəsi)
- Mayaotu toxumu

Bitkiləri dəmləmə şəklində qəbul edirlər (1 x.q. quru ot + 200 ml qaynar su). Bir neçə bitkini birlikdə də istifadə etmək olar (məsələn, 1 ç.q. nanə + 1 ç.q. pişikotu + 200 ml su və s.).

# Allah rəhmət eləsin

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri general-mayor Dadaş Rzayev və kollektivin bütün üzvləri Təşkilatın bölmə rəhbəri Haqverdiyev Adil İsmayıl oğlunun həyat yoldaşının qardaşı
**Hüseynov Əvəz Qiyas oğlunun**
vəfatından kədərləndirdiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri general-mayor Dadaş Rzayev və kollektivin bütün üzvləri Böyük Vətən müharibəsinin iştirakçısı, 104 yaşlı
**Əliyev Allahverdi Əzizbala oğlunun**
vəfatından kədərləndirdiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri general-mayor Dadaş Rzayev və kollektivin bütün üzvləri Təşkilatın mütəxəssisi İbrahimova İradə Əliheydər qızının xalası
**Əliyeva Tərlan Əkbər qızının**
vəfatından kədərləndirdiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# Yemişin faydalı xüsusiyyətləri

B vitamini və yodla zəngin yemiş bir çox xüsusiyyətləri ilə dəyərli meyvələr sırasındadır. İlk növbədə asanlıqla yuxuya getməyə kömək edir. Bununla yanaşı, mütəxəssislərin fikrincə, yemişin gözəl ətri cütlüklərdə cinsi istəyi artırır.

Yemişin digər faydalı xüsusiyyətləri haqqında məlumat verir.

Yeməkdən əvvəl yeyilən yemiş həzm sistemi orqanlarını təmizləyir.

Böyrək-sidik kisəsi qumu tökülən zaman yemiş yeyilərsə, böyrəklər rahatlanır və sakitləşir. Yemiş həm də sidikqovucudur. Sidik yolu xəstəliklərinə qarşı faydalıdır.

Babasil şikayətlərinə yaxşı təsir edir.

Yemişin dənələri qaynadıldıqdan sonra suyu içildikdə nəfəs yolu narahatlıqlarının qarşısını ala bilər.

Qaraciyər xəstəliklərinə də yemiş dənəsi suyu yaxşı təsir edir. Lakin gündə 1 stəkandan çox içmək məsləhət deyil.

Yemiş bədənə sərinlik hissi verir. Yanan hissəyə yemiş qoyularsa, ağrı azalır və sağalmasına kömək edir.

Ət bişirən zaman yemiş qabığı əlavə edilərsə, tez bişməsinə səbəb olar.

*Baş redaktor*
*Ülvi İBRAHİMLİ*
*Məsul katib*
*Səidə ABDULLAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
*Təsisçi: Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
*VÖEN: 1701285981*
*verilmə tarixi - 23.11.2011*

*Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Kaveroçkin küçəsi, 34*
*Əlaqə telefonu: 012 440-21-08*
*e-mail: az.veteran@mail.ru*
*Dövlət qeydiyyat nömrəsi - 3486*
*Dövlət qeydiyyat tarixi - 19.10.2011*

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 50 qəpik*
*Tiraj: 1250*